# Azərbaycan vətəndaşlarının rifahı Prezident İlham Əliyevin bütün fəaliyyətinin əsasını təşkil edir

(Əvvəli 1-ci səhifədə).

Hazırda isə ölkəmiz parlament seçkiləri ərəfəsindədir və üzərimizdəki beynəlxalq diqqət bir qədər də artıb. Müxtəlif təşkilatlar Azərbaycanla bağlı hesabatlar hazırlayır, rəy sorğuları keçirirlər. Son 10 gündə 2 rəy sorğusu açıqlanıb. Ötən həftə Amerikanın nüfuzlu "Arthur J.Finkelstein & Associates" ictimai rəyin öyrənilməsi beynəlxalq mərkəzi Azərbaycan əhalisi arasında qarşıdan gələn parlament seçkiləri ilə bağlı keçirdiyi sorğunun nəticələrini dərc etmişdi. Sorğuda respondentlərin təxminən 80 faizi hesab edir ki, Azərbaycan hazırkı hakimiyyət orqanlarının rəhbərliyi altında düzgün istiqamətdə irəliləyir və Dağlıq Qarabağ münaqişəsi ölkə gündəmində ən vacib məsələdir. İctimai rəy sorğusu 5,1 milyon azərbaycanlı seçicinin qərarına təsir göstərən geniş əhatəli məsələlər üzərində cəmləşib. "Onların ölkəsi düzgün istiqamətdə irəliləyirmi?" sualına iştirakçıların 77,1 faizi müsbət, 14,7 faizi mənfi cavab verib. Geosiyasi məsələlərlə bağlı respondentlərin 81,7 faizi qeyd edib ki, Azərbaycan regionda "sabitlik adasıdır", bir çox ölkələr bu regionda qeyri-sabit durumdadır. Sorğu iştirakçılarına onların Prezident İlham Əliyevin indiki işini necə dəyərləndirdikləri barədə də sual verilib. Respondentlərin 82,1 faizi "yaxşı" və "əla" cavablarını veriblər.

Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevin təkmil siyasət məktəbində yetişmiş peşəkar diplomat kimi praqmatik, müasir lider imicinə malik olması, müasir dünya reallıqlarını düzgün qiymətləndirməsi, qlobal proseslərə xalqın mənafeyinə uyğun nüfuz etmək bacarığı, respublikanı qısa zamanda bölgədə və bütövlükdə Avropa məkanında nüfuzlu dövlətə çevirməsi onun həm daxildə, həm də ölkə hüdudlarından kənarda ciddi siyasi dəstək almasına zəmin yaratmışdır. Nüfuzlu beynəlxalq təşkilatlar və mərkəzlər, keçirilən rəy sorğularının nəticələri Azərbaycanda seçkiqabağı situasiyanı yüksək qiymətləndirir və Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin düzgün yolla inkişaf etdiyini bildirirlər.

Prezident İlham Əliyev bütün fəaliyyətini Azərbaycan vətəndaşlarının rifahı üçün səfərbər edib, Onun atdığı hər bir addım insanların daha yaxşı yaşamasına hesablanıb. Buna görə də Prezident İlham Əliyevin hər bir addımı insanlarda böyük ümid və gələcəyə nikbin baxış formalaşdırır.

**Qüdrət SƏMƏDOV.**

## 1 noyabr Milli Məclisə seçkilər günüdür

# Təbliğat kampaniyası davam edir

Azərbaycan Respublikası Milli Məclisinə 116 saylı Qəbələ Seçki Dairəsindən deputat-





lığa namizəd Fəttah Heydərovun Qəbələ Ağsaqqalları ilə görüşü oldu. Görüşü giriş sözü ilə namizədin səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açdı.

Söz namizədin vəkili Arifə Bayramovaya verildi. Arifə Bayramova bildirdi ki, Fəttah Heydərov ulu öndər Heydər Əliyevin yaxın silahdaşı olub. Artıq 20 ildir ki, bizi Milli Məclisdə layiqincə təmsil edir. Bizim Qəbələmizi də layiqincə təbliğ edir. Bu gün Azərbaycan regionda fərqlənən ölkələrdən biridir. Ölkəmiz haqda rəy də çox yüksəkdir. Biz Azərbaycanda daha çox inkişaf etmiş rayonun nümayəndəsi kimi tanınırıq.

Həmişə öz rayonumuzda gedən inkişafla, bu işdə rolu olan Fəttah Heydərovla fəxr edirik. Ağsaqqallardan Vaqif Əzimov, Alı Məmmədov, Nadir Atakişiyev, Ağasəddin Nəsirov, Oqtay Babayev və başqaları çıxış edərək. Fəttah Heydərovun 20 il ərzində Milli Məclisdəki fəaliyyətindən, rayonumuzun inkişafındakı rolundan söz açdılar, ağsaqqalların yaxın dostu və həmdəmi olmasından danışdılar.

Deputatlığa namizəd Fəttah Heydərov çıxışında ağsaqqallara onun görüşündə belə fəal iştirak etdiklərinə görə təşəkkürünü bildirdi. Dedi ki, burada ağsaqqalların söylədiyi fikirləri səmimi qəbul edir. Axı siz böyük həyat yolu keçmisiniz. Mən sizin deputatınız kimi, eyni zamanda ağsaqqallar şurasının sədri kimi sizə çox sağ olun deyirəm. Biz nə etmişiksə sizdən ötrü etmişik. Bu gün sizinlə yığışıb mükalimə edirik. Siz dünyanın hər üzünü görmüş nəsilsiniz. Vətənimizdəki bu sabitliyin, sakitliyin əsasını ulu öndər qoymuşdur. Bu yolu onun layiqli varisi İlham Əliyev uğurla davam etdirir. Dünyada gedən proseslərdən xəbəriniz var. Bəzi qara qüvvələr çalışırlır ki, bizi öz müstəqil yolumuzdan döndərsinlər. Ancaq möhtərəm Prezidentimiz Azərbaycanın öz müstəqillik yolundan heç vaxt dönməyəcəyini dəfələrlə bəyan etmişdir. Azərbaycan Prezidenti möhtərəm cənab İlham Əliyevin bütün fəaliyyəti Azərbaycanın müstəqil inkişaf yolunu davam etdirmək, bütün Azərbaycan xalqının, o cümlədən siz ağsaqqalların rifah halını yüksəltmək üstündə qurulmuşdur. Azərbaycan parlamenti də möhtərəm Prezidentin uğurlu siyasətinə dəstək verən ali qanunverici orqandır. Ona görə noyabrın 1-də sizin hamınızı seçkiləri toy bayram kimi keçirməyə çağırıram.

Yığıncaqda çıxış edənlərin, bütün iştirakçıların yekdil fikri belədir. Onlar bu günə qədər sınanmış namizədlərinə, səmimi insan Fəttah Heydərova səs verəcəklər.

* * *

Azərbaycan Respublikası Milli Məclisinə 116 saylı Qəbələ Seçki Dairəsindən deputatlığa namizəd Fəttah Heydərov Çuxur Qəbələ kəndində bu kənddən və Tövlə kəndindən olan seçicilərlə görüşdü. Görüşü giriş sözü ilə namizədin səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açdı. Abil Ağasəfov bildirdi ki, Fəttah Heydərov artıq 4 çağırış Qəbələ seçicilərini Milli Məclisdə təmsil etmiş, öz fəal deputat fəaliyyəti və insanlara münasibətilə nəinki Qəbələdə, bütün Azərbaycanda nüfuz qazanmışdır. Ona görə də Yeni Azərbaycan Partiyası bu seçkilərdə də Fəttah Heydərovun Milli Məclisə deputatlığa namizədliyini dəstəkləməyi qərara almışdır. Bu gün Fəttah müəllim sizin görüşünüzə gəlmişdir.

Sonra söz namizədin vəkili Qüdrət Səmədova verildi. O qeyd etdi ki, möhtəşəm binalar ancaq möhkəm özül üzərində yüksəldikdə öz möhtəşəmliyini uzun müddət saxlaya bilir. Bu gün Prezident İlham Əliyev tərəfindən məharətlə ucaldılan Azərbaycan adlı möhtəşəm dövlətin bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən çox möhkəm əsaslarla qoyulmuşdur.

Bu günkü güclü Azərbaycanın, dünyada tanınan Azərbaycanın möhkəmlənməsində ölkə parlamentinin böyük rolu var. Bizim parlamentimiz də ona görə fəaldır ki, orada Fəttah Heydərov kimi müdrik insanlar var. Fəttah Heydərovun fəaliyyəti təkcə parlament ilə qanunvericilik aktlarının müzakirəsi, onların qəbul edilməsində iştirak etməklə bitmir. Fəttah Heydərov rayonumuzda çox böyük sosial və iqtisadi layihələrin həyata keçirilməsinin təşəbbüskarı və iştirakçısıdır.



Qəbələ bu gün nəinki respublikada, hətta beynəlxalq arenada tanınan bir bölgəyə çevrilmişdir. Burada çox mühüm beynəlxalq tədbirlər keçirilir. Fəttah müəllim səmimi, qayğıkeş insandır. Bu keyfiyyətlərə görə seçicilər Fəttah Heydərovu təkcə onların Milli Məclisdə təmsilçisi yox eyni zamanda özlərinə bir dost, arxa, ağsaqqal kimi tanıyırlar.

Namizədin vəkili sonda bütün seçiciləri noyabrın 1-də Milli Məclisə seçkilərdə fəal iştirak etməyə və Fəttah Heydərova səs verməyə çağırdı.

Çıxış edən seçicilər Fəttah Heydərovun Milli Məclisdə 20 ildir ki, onları layiqincə təmsil etdiyindən, Çuxur Qəbələ və Tövlə kəndlərinin sosial-iqtisadi inkişafı, abadlaşması sahəsindəki rolundan məmnunluqla danışdılar. Bu kəndlərə təbii qaz çəkilmiş, Tövlə kəndində yeni məktəb tikilmiş, Çuxur Qəbələ kənd məktəbi təmir olunmuş, kəndə gözəl asfalt yol çəkilmiş, məscid tikilmişdir. Qafqaz Albaniyasının paytaxtı olmuş və Çuxur Qəbələ kəndinin yaxınlığında yerləşən Qədim Qəbələ şəhərinin ərazisində də abadlıq işlərinin görülməsi arxeoloji qazıntıların aparılması onların üräyincədir.

Namizədin vəkili Aslan Cəlilov bildirdi ki, Fəttah Heydərov xeyirxah, Allaha, dininə bağlı, sözü bütöv, verdiyi sözə əməl edən bir insandır. Fəttah Heydərov dəfələrlə müqəddəs Həcc ziyarətinə getmişdir.

Deputatlığa namizəd Fəttah Heydərov bu görüşdən çox məmnun qaldığını bildirərək qeyd etdi ki, Azərbaycanın, Qəbələnin o cümlədən sizin kəndlərin inkişafı bu günkü həyatımızın reallığıdır. Bu inkişaf ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin fəaliyyətinin nəticəsidir.

(Ardı 3-cü səhifədə).